https://doi.org/10.59849/3006-1342.2026.1.84
UOT 94(479.24)

*Günay Xaliq qızı Talıbova*
*AMEA Gəncə bölməsi*
*Elmi işçi*
*E-mail:* talibovag@gmail.com
*Orcid ID:* 0000-0003-1495-2961

# ŞƏKİ XANLIĞININ QARABAĞ XANLIĞI İLƏ SİYASİ MÜNASİBƏTLƏRİ

*Şəki xanlığının ən sıx əlaqələrə malik olduğu və eyni zamanda bu əlaqələrin sıx olduğu qədər də mürəkkəb xarakter daşıdığı xanlıq – Qarabağ xanlığıdır. XVIII əsrin ortalarından XIX əsrin əvvəllərinə qədər Şəki – Qarabağ münasibətlərində, daha doğrusu, bu münasibətlərin gərginləşməsində Rusiya, Qacar dövləti və gürcü çarlıqlarının hər iki xanlıqla ayrı-ayrılıqda apardıqları hərbi-siyasi siyasət əsas amillərdən biri olmuşdur. Məqalə əsasən həmin dövrün tarixi gerçəkliklərini əks etdirən mühüm mənbələr, eləcə də hadisələrin canlı şahidləri olmuş tarixçilərin əsərləri əsasında yazılmışdı.*

*Açar sözlər:* Azərbaycan, Şəki xanlığı, Qarabağ xanlığı, Hacı Çələbi xan, İbrahimxəlil xan

*Giriş*

Şəki xanlığının Qarabağ xanlığı ilə münasibətlər tarixinun tədqiq olunması, istər Azərbaycanın XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində daxili siyasi vəziyyətinin səciyyələndirilməsi, istərsə də regional münasibətlərin öyrənilməsi baxımından böyük əhəmiyyətə malikdir. Hər iki xanlıq, malik olduqları strateji əhəmiyyətə və hərbi-siyasi qüdrətinə görə bir-birinə rəqib olub, eyni zamanda müttəfiqlik münasibətləri ilə birləşincə də təkcə Azərbaycanın deyil, Qafqazın çox böyük bir qüvvəsinə çevrilmə potensialını göstərmişlər. Bu səbəbdəndir ki, XVIII əsrin sonlarına doğru Şəki – Qarabağ müttəfiqliyinin reallığa çevrilməsi imkanının yaranması Qacar dövləti və Rusiya üçün ən böyük təhlükələrdən biri olmuş, hər iki xanlıq ilk fürsətdə ortadan qaldırılan dövlətlərdən olmuşlar. Məhz buna görə də XVIII əsrin sonlarına doğru Şəki–Qarabağ müttəfiqliyinin reallaşması ehtimalının yaranması Qacar dövləti və Rusiya imperiyası üçün ciddi təhlükə kimi qiymətləndirilmiş, nəticədə yaranan ilk əlverişli şəraitdə onların müstəqilliyinə son qoyulmuşdur.

*Əsas hissə:* Ən qədim insan məskənlərindən olan Qarabağ antik dövrdə və orta əsrlərdə Azərbaycanın həm hərbi-siyasi, həm də mədəniyyət tarixinin önəmli mərkəzlərindən biri olmuşdur. Azərbaycan Səfəvi dövləti yarandıqdan sonra Qarabağ bu dövlətin vilayətlərindən birinə çevrilmiş və iqamətgahları Gəncədə olan bəylərbəyilər tərəfindən idarə olunmuşdur [9, c. 26]. Uzun müddət bu vəzifə Azərbaycan Qacarlar tayfasından gələn Ziyadoğullarının əlində olmuş, lakin Nadir Əfşarın hakimiyyətə gəlməsi ilə Qarabağın idarəçiliyində də dəyişikliklər olmuşdur. Belə ki, Nadir Əfşarın şah elan edilməsinə qarşı çıxan və ümumiyyətlə onun hakimiyyətinə müxalif olan tayfaların içərisində Ziyadoğulları (həmçinin Cavanşir, Kəbirli, Otuziki və b.) da var idi. 1736-cı ildə Nadir Əfşar şah elan edildikdən sonra bu müxalif gücləri cəzalandırmaq məqsədilə "Qazax və Borçalı elatlarını Ziyadoğullarının tabeçiliyindən çıxarıb Kartli çarının tabeçiliyinə keçirdi. Daha sonra isə yerli Azərbaycan feodal hakimləri üzərində nəzarəti artırmaq üçün Şirvan, Qarabağ, Təbriz, Cuxursəd bəylərbəyliklərini mərkəzi Təbriz şəhəri olmaqla Azərbaycan vilayətinə daxil etdi" [7, s. 27-28]. Bundan əlavə, alban xristian məliklərini Ziyadoğlullarının tabeçiliyindən çıxardı, Cavanşir, Kəbirli, Otuziki tayfalarını isə Xorasana köçürməklə cəzalandırdı [9, c. 32].

Cavanşir tayfasından olan və gələcəkdə Qarabağ xanlığının əsasını qoyacaq Pənahəli bəy Nadir şahın sarayında bir müddət xidmət göstərsə də, sonradan onun qəzəbindən qaçmaq məcburiyyətində qalmışdı. Mirzə Camal Cavanşir yazır ki, 1743-cü ildə "Nadir şah Qarabağ, Gəncə, Tiflis və Şirvan vilayətlərini aldıqdan sonra, ellər və kəndlər arasında görüb-tanıdığı hər bir şücaətli və işgüzar adamı yanına çağırıb, öz yaxın qulluqçuları sırasına alar və onu məvacib, ehtiram və mənsəb sahibi edərdi. O cümlədən ellər arasında Pənahəli bəy Sarıcalı Cavanşir adı ilə şöhrət tapmış, hər işdə fərqlənmiş, ad çıxarmış, müharibə və davada taytuşuna üstün gələn və xüsusilə mərhum Nadir şahın Rum əhli qoşunları ilə etdiyi müharibələrdə şücaət göstərmiş Pənah xanı da öz yanına apardı. O da istər səfərdə, istərsə evdə sədaqətlə qulluq etməyə çalışıb, şahın yanında mənsəb və hörmət sahibi oldu ... Şahın evində və ellər arasında olan bir para qəlbi-qara adamlar, paxılların adəti üzrə, açıqda və gizlində Pənah xanı mərhum Nadir şahın yanında o qədər pislədilər ki, mərhum şahın ona qarşı olan məhəbbətini ədavətə çevirdilər. İşin həqiqətindən agah olan Pənah xan canının qorxusundan, şah Xorasanda olduğu zaman, fürsət tapıb bir neçə qohumu və yaxın adamı ilə 1150 (1737-1738)-ci ildə Qarabağ vilayətinə qaçdı" [4, s. 125]. Qarabağda Nadir şahın adamları tərəfindən ələ keçirilməkdən qorxan Pənahəli bəy Şəki vilayətinin Qəbələ mahalında gizlənməli oldu.

Nadir şahın bütün səylərinə baxmayaraq Pənahəli bəy və tərəfdarları (onların arasında oğlu İbrahim Xəlil də vardı) Şəkidə və Carda şahın ölümünə qədər (1747) gizlənməyə müyəssər oldular. Eyni zamanda bu illərdə Pənahəli bəyin dəstələri İrəvanda, Naxçıvanda, Gəncədə və Şəkidə talanedici yürüşlər də həyata keçirmişlər [4, s. 125]. Nadir şahın vəfatı ilə yaranmış siyasi istiqrarsızlıqdan istifadə edən Pənahəli bəy tərəfdarlarını da toplayaraq Qarabağa gəldi və özünü xan elan etdi (1747-1763). Beləliklə, Azərbaycan ərazisində yeni bir dövlətin – Qarabağ xanlığının əsası qoyuldu.

Hacı Çələbi xanın Şəkidə və ətraf bölgələrdə hakimiyyətini möhkəmlətməsi, Qarabağın bəzi ərazilərini ələ keçirməsi, həmçinin Azərbaycanda siyasi üstünlüyü ələ keçirməklə bağlı iddiaları bu mərhələdə iki xanlıq arasında münasibətlərin xarakterini müəyyən edən başlıca amillərdən oldu. Hacı Çələbi xanla Pənahəli xan arasında münasibətləri gərginləşdirən digər bir məqam isə Nadir şahın ölümünündən sonra hakimiyyətə gəlmiş Adil şaha itaət məsələsinə fərqli münasibət göstərmələri olmuşdu. Hacı Çələbi xan, Nadir şahın qardaşı oğlu Adil şaha itaət etmək fikrində deyildi və məqsədi qurmuş olduğu xanlığı müstəqil idarə etmək idi. Ondan fərqli olaraq, Pənahəli xan bu süzerenliyi qəbul etmək qərarına gəlmişdi ki, bu qərarın da başlıca səbəbi, Əhməd bəy Cavanşirin yazdığına görə, Pənahəli xanın "məliklərə rəğbət bəsləyən və ona həsəd aparan öz qonşuluğundakı xanların fitnələrindən qorxuya düşüb, xaricdən kömək və ya himayə axtarmağa məcbur qalması" idi [4, s. 181].

İran hökuməti Azərbaycandakı üsyankar bölgələrin iqtidar üçün nə qədər böyük problemlər doğurduğunu Nadir şahın təcrübəsindən yaxşı bilirdi, ona görə də Adil şah tərəfindən Azərbaycan vilayətinə sərdar təyin edilmiş Əmir Aslan xan 1747-ci ilin sonlarına doğru Hacı Çələbi başda olmaqla asi xanları cəzalandırmaq üçün Azərbaycana yürüş təşkil etdi . Şəki xanının qoşunu ilə Əmir Aslan xanın qoşunları arasında baş verən döyüşdə şəkililər böyük təlefat vermələrinə, o cümlədən Hacı Çələbinin oğlu Həsən Ağanın həlak olmasına baxmayaraq, Şəki xanlığını itaət altına almaq mümkün olmadı.

Əmir Aslan xanın yürüşü nəticəsində Azərbaycandakı hərbi-siyasi vəziyyətin kəkinləşməsi xanlıqlar arasındakı münasibətlərə də ziyan vurdu. Azərbaycandakı hərbi-siyasi vəziyyətin pisləşməsində xarici işğal təhlükəsi ilə yanaşı, ölkənin daxilindəki separatçı qüvvələrin də rolu az olmadı. Birmənalı olaraq Hacı Çələbinin hakimiyyəti dövründə Şəki xanlığı ilə Qarabağ xanlığı arasındakı münasibətləri gərginləşdirən daxili amilllərdən biri – Qarabağdakı məlikliklər oldu. Yuxarıda qeyd etdiyimiz kimi, Nadir şah onun iqtidarına qarşı müxalif olan Azərbaycan tayfalarını, o cümlədən Ziyadoğullarını, Cavanşirləri, Kəbirləri

cəzalandırmışdı. Bu cəza tədbirlərindən biri də Səfəvilərin dövründə Qarabağ bəylərbəyindən asılı olan məlikliklərin Nadir şahın dövründə birbaşa Azərbaycan canişininə tabe edilməsi olmuşdu [4, s. 36]. Bu vəziyyət Qarabağ məliklərinin siyasi olaraq güclənməsinə yol açmış və Qarabağ xanlığı yarandıqdan sonra onların bölgədə separatçılıq mənbəyinə çevrilməsinə gətirib çıxarmışdı. Məlikliklərin separatçılıq cəhdlərinin Şəki xanlığı ilə Qarabağ xanlığı arasındakı münasibətlərə təsirinə gəlincə, ilk olaraq qeyd etməliyik ki, iki xanlıq arasındakı gərginlik, o cümlədən Azərbaycanda üstünlük uğrunda apardıqları mübarizə Qarabağın məlikləri üçün əlverişli şərait yaratmışdı. Pənahəli xanın Qarabağda və ətraf bölgələrdə güclənməsi ilə onların hakimiyyətinə son qoyulacağını anladıqları üçün məliklər Hacı Çələbi xanla Qarabağ xanı arasındakı rəqabətdən istifadə etmək qərarına gəlmişdilər. Mirzə Adıgözəl bəy yazır ki, xəmsə məlikləri "bütün Şirvanda əbədi ixtiyar sahibi və hökmran olan Hacı Çələbi xana ərizələr yazdılar. Ona bildirdilər ki, Pənah xan burada taxta çıxmış, qala və səngər tikdirmişdir. Əgər dəfində bir qədər təxir edilsə, sonra onun qarşısında durmaq mümkün olmayacaqdır" [4, s. 36]. Təəssüf ki, Hacı Çələbi xan məliklərin qurmuş olduğu bu fitnənin mahiyyətini anlamayıb Qarabağ xanlığına qarşı hərbi əməliyyatlara başlamaq qərarına gəldi: 1748-ci ilin sonlarına doğru Şəki xanının Dərbənd və Car-Balakəndən olan dəstələrlə birləşmiş olan hərbi qüvvələri Bayat qalasına hücum etdi. Mühasirə bir ay sürsə də, Hacı Çələbi xan uğur qazana bilmədi. Mirzə Camal Cavanşir yazır ki, Hacı Çələbi xan bu yürüşdən qayıdarkən aşağıdakı sözləri söyləmişdi: "Pənah xan bir xan idi. Biz gəldik onunla dava elədik və bir iş də görə bilmədik. Biz indi onu şah edib qayıdırıq" [4, s. 127].

1748-ci il Bayat hadisəsi Azərbaycanın bu iki xanlığı üçün təsirsiz ötüşmədi: əvvəla, Hacı Çələbi xanın Bayat qalasını ala bilməməsi onun nüfuzunu aşağı saldı, bunun əksinə isə Qarabağ xanının nüfuzunu artırdı. Digər tərəfdən, qazanmış olduğu hərbi uğurdan sonra Pənahəli xan Hacı Çələbinin və onun gücünə sığınan qüvvələrin (o cümlədən xəmsə məlikliklərin) təkrar güclənməsinin qarşısını almaq, həmçinin, Azərbaycanda üstünlüyü ələ keçirmək iddiası ilə diplomatik və hərbi fəaliyyətini genişləndirmək qərarına gəldi. Təəssüf ki, Pənahəli xanın bu fəaliyyətinə xarici qüvvə, dəqiq desək, gürcü çarları da cəlb edildi. Mirzə Adıgözəl bəy bu hadisələri aşağıdakı kimi təsvir edir: "Məhəmməd Həsən xan (Qarabağdan) qayıtdıqdan sonra, Pənah xan, Qaradağlı Kazım xan, Naxçıvanlı Heydərqulu xan və Gəncəli Şahverdi xan məsləhət məclisi qurdular. Onlar belə bir qərara gəldilər ki, bütün Şirvan ölkəsinin hakimi; azad və həmişəlik sahibi-ixtiyarı olan Hacı Çələbi onlarla hesablaşmır və dostluq yolunu düzlüklə getmir. Buna görə lazımdır ki, onu məğrurluq yuxusundan oyatmaq üçün tədbir görsünlər. Sonra ürəklərinin sözünü məktub vasitəsilə Gürcüstan valisi İrakli xana bildirdilər. Vali də özünün bu işdə və bu yolda onlarla yoldaş olduğunu izhar etdi. Onlara yazıb bildirdi ki, tezliklə hərəkət edərək fürsəti itirmədən buraya gəlsinlər" [4, s. 49].

Məlumatdan da göründüyü kimi, adları çəkilən xanlar Hacı Çələbi xana qarşı yaratdıqları hərbi ittifaqa Kartli çarı II Teymurazın oğlu, Kaxeti çarı II İraklini (1744-1762) də cəlb etmişdilər. Əslində gürcü çarlarının Azərbaycan torpaqlarında möhkəmlənmək siyasəti ənənəvi olub Nadir şahın dövründə daha da güclənmiş, xanlıqların yaranması ilə isə yeni mərhələyə daxil olmuşdur. 1752-ci il hadisəsi - Pənahəli xanın başçılığı altında Azərbaycanın bəzi yerli hökmdarlarının gürcü çarları ilə birləşmək cəhdləri əslində XVIII əsrin ikinci yarısında Azərbaycan reallığının təzahürü idi. Ölkədə vahid hakimiyyəti ələ keçirmək üçün bir-birilə mübarizə aparan Azərbaycan xanlıqlarının xarici qüvvələrlə birləşmək cəhdləri uğursuz olub vahid dövlətin yaranması prosesini ləngidirdi, xanlıqları hərbi və siyasi cəhətdən zəiflədirdi, ölkədə vahid iqtisadi bazarın yaranmasına mane olurdu. Bu da öz növbəsində Azərbaycanı xarici işğal təhlükəsi qarşısında müdafiəsiz qoyurdu. Bunu sonrakı yüzilliyin əvvəllərində baş verən hadisələr də sübut edir.

Şəki xanlığına qarşı çevrilmiş bu ittifaq isə nəinki baş tutmadı, əksinə, bu ittifaqı təşkil edən xanların özlərinə qarşı çevrilmiş oldu. Belə ki, gürcü çarları Azərbaycan xanları ilə ittifaqa girmədilər, hətta Cənubi Qafqazda möhkəmlənmək uğrunda işğalçı siyasətlərinə mane ola biləcək bu siyasi qüvvələri aradan götürmək qərarına gəldilər. Mirzə Adıgözəl bəy yazır ki, Hacı Çələbiyə qarşı birləşmiş "xanlar da səfər tədarükü görüb, qoşun və əsgər topladılar. Hamısı ittifaq edib, hərəkət bayrağını qaldıraraq yola düşdülər. Gəncə şəhərindən yuxarı, Qızılqaya adlı yerdə dayandılar" [4, s. 49]. 1752-ci il martın 21-də çar II İrakli onlara pusqu qurdu və Pənah xanı, Kazım xanı, Heydərqulu xanı və Şahverdi xanı əsir götürdü.

Bu xəbər Hacı Çələbi xana çatdığında Azərbaycan xanlarını xilas etmək qərarına gəldi. XVIII əsr anonim gürcü salnaməsində yazır ki, martın 28-də "Pənah xanın oğlu Hacı Çələbinin yanına gəldi və Gəncədən qoşun gətirdi. Döyüş baş verdi. Çarlar Nuxadan gələn ordunu ciddiyə almayıb döyüşə çox nizamsız qatıldılar və məğlub oldular. Gürcü çarları qoşunları ilə Tiflisə geri döndülər. Əsirlikdə olan xanlar isə Gəncəyə Hacı Çələbinin yanına qayıtdılar ... Gəncədəki Tiflisli tacirlər Hacı Çələbinin adamları tərəfindən qarət olundular" [5, s. 25]. Beləliklə, Hacı Çələbi xan böyük bir qəhrəmanlıq göstərərək, gürcü çarları II Teymuraz və II İraklinin qoşunlarına qarşı döyüşdə zəfər qazandı, ona qarşı ittifaqda birləşmiş olan Qarabağ xanı Pənah xanı və müttəfiqlərini əsirlikdən azad etdi.

1752-ci il Qızılqaya hadisəsindən sonra Şəki xanlığı ilə Qarabağ xanlığı arasında münasibətlərdəki gərginlik aradan qalxdı. Hətta Hacı Çələbi xanın vəfatından sonra da (1755) Qarabağ xanı Pənahəli xan Şəki xanlığına qarşı hər hansı bir düşmənçilik göstərməmişdir. Hətta Hacı Çələbi xan vəfat etdikdən sonra oğlu Ağakişi xan (1755-1759) hakimiyyətə keçincə Şəki torpaqları uğrunda başlanan mübarizədə Pənahəli xan şəkililərin yanında yer almışdı. Belə ki, Qazıqumuxlu Məhəmməd xan (1748-1789) kürəkəni olan Ağakişi xanı hiylə ilə qətlə yetirərək Şəkini qarət etmişdi. Hadisələri təsvir edən Kərim Ağa Fateh yazır: "Ağakişi bəy qızını alan Məhəmməd xan, Qumux xanı qoşun ilə Ərəş mahalına gəlib, Ağakişi bəyə adam göndərər ki, qızımın əri gəlsin, görüşək. Ağakişi bəy də bir para adam götürüb gedər. Ərəş sultanı Məlik Əliməhəmməd xan ilə sözü bir olub, Məhəmməd xan tarixi islamiyyə min yüz yetmiş ikidə olanda Ağakişi bəyi öldürər. Qoşunun götürər. Noxuya gələr ... Məhəmməd xan Noxuya gəlib, Hacı Çələbinin çox pulun və xəzinəsinin yerini duyubdurlar. Yerdən çıxarıb, Noxuda zülmlər edib, qırx gün Noxuda qalıb" [2, s. 121;3, s. 12]. Vəziyyət belə olunca şəkililər üsyana qalxdı və üsyançıların başçısı – Hacı Çələbi xanın böyük nəvəsi Hüseyn xan (1759-1779) Qazıqumux xanını Şəkidən çıxarmağa müyəssər oldu. Mahmud İsmayıl və M.Bağırova yazırlar ki, Hüseyn xan Şəkidə hakimiyyətini bərpa etmək üçün Qarabağ xanı Pənahəli xandan yardım almışdı; hətta adı çəkilən tarixçilər bunu "Hacı Çələbi xanın onu gürcü çarının əsirliyindən xilas etməsini unutmadığı üçün" etdiyini göstərirlər [6, s. 26-27]. Lakin bu dövrdə Şirazda əsirlikdə olan Pənahəli xanın bu yardımı etməsi real görünmür. Digər tərəfdən, bəzi mənbələrdə Hüseyn xanın öz hakimiyyətini bərpa etmək üçün yardımı Şirvandan aldığı göstərilir. Məsələn, Kərim Ağa Fateh bununla əlaqədar yazır: "Qırx gündən sonra Şəki əhli dönüb, Hüseyn xanı Şirvandan gətirib, Məhəmməd xanı Şəkidən qovub, Hüseyn xanı Şəkidə xan edibdirlər" [3, s. 12]. A.A.Bakıxanov isə bu yardımın konkret olaraq Quba xanlığından alındığını göstərir: "Hacı Çələbi nəvəsi Ağakişi bəy öldürüldükdən sonra Hüseyn ağa Həsən ağa oğlu Qəbələ yolu ilə Dərbəndə, Fətəli xanın yanına getmişdi. Quba qoşununun köməkliyi və Şəki əyanının ittifaqilə, Məhəmməd xanı buradan çıxararaq öz mülkünə sahib oldu" [2, s. 121].

Hacı Çələbi xan və Pənahəli xanın vəfatından sonrakı dövrdə Şəki xanlığı ilə Qarabağ xanlığı arasındakı münasibətlərin xarakterinə gəlincə, qeyd etməliyik ki, bu münasibətləri birmənalı olaraq müttəfiqlik və ya rəqiblik kimi qiymətləndirmək olmaz. Bu, bir tərəfdən, Şəki xanlığında hakimiyyətin sabit olmaması ilə əlaqədar idi, ikinci bir tərəfdən də, beynəlxalq və regional vəziyyətin mürəkkəbliyinə dayanırdı. Ümumiyyətlə, Hacı Çələbinin

vəfatından sonra (1755) Şəki xanlığında hakimiyyət sabit olmamış, cəmi yarım əsr ərzində (1806-cı il Rusiya işğalına qədər) 6 xan 8 dəfə hakimiyyət dəyişdirmişdir:

- Ağakişi xan (1755-1759)
- Hüseyn xan (1759-1779)
- Hacı Əbdülqadir xan (1779-1784)
- Məhəmməd Həsən xan (1784-1795)
- Səlim xan (1795-1797)
- Məhəmməd Həsən xan (1797-1805), ikinci dəfə
- Fətəli xan (1805)
- Səlim xan (1805-1806), ikinci dəfə

Rusiya işğalından sonra isə aşağıdakı xanlar hakimiyyətdə olmuşdur:

- Xoylu Cəfərqulu xan (1806-1814)
- Xoylu İsmayıl xan (1814-1819)

1819-cu ildə Şəki xanlığı ləğv olunduqdan sonra, 1826-cı ildə Səlim xanın oğlu Hüseyn xan müstəmləkəçilərə qarşı çıxaraq Şəkidə hakimiyyəti ələ keçirsə də, cəmi üç ay xanlıq edə bilmişdir. Bu qeyri-sabitlik Şəki xanlığının digər xanlıqlarla, o cümlədən Qarabağ xanlığı ilə münasibətlərində də dəyişik siyasətlər doğurmuşdur.

Pənahəli xanın 1763-cü ildə Şiraz əsirliyində müəmmalı vəfatından sonra oğlu İbrahimxəlil xan (1763-1806) Qarabağ xanlığında hakimiyyətə gəldi, daha doğrusu, Qarabağ xanlığının formal süzereni olan Kərim xan Zənd tərəfindən xanlıq fərmanını aldı [4, s.56; 11, c.695]. Bu zaman Şəkidə Hüseyn xan (1759-1779) hakimiyyətdə idi və bu illərdə Şəki xanlığı ilə Qarabağ xanlığı arasında münasibətlər normal, hətta qohumluq əlaqələri səciyyəsi daşımışdır. Belə ki, Hüseyn xanın qızı Tububəyim İbrahimxəlil xanın baş xanımlarından biri idi, eyni zamanda Hüseyn xanın oğlu Səlim də (gələcəkdə Şəki hökmdarı Səlim xan - 1795-1797, 1805-1806) İbrahimxəlil xanın qızı Tutubəyimlə evlənmişdi [11, c. 695; 13, c. 1120].

Lakin Hüseyn xana qarşı xanlığın içərisində böyük bir müxalifət mövcud idi və bu müxalifətin başında duran xanın əmisi Hacı Əbdülqadir 1779-cu ildə Hüseyn xanı qətlə yetirərək Şəki xanı oldu. A.A.Bakıxanov yazır: “Hicri 1194-cü (1779) ildə, Hacı Əbdülqadir, Hacı Çələbinin əmisi oğlu Hacı Rəsul bəy Hacı Şeyx Əli oğlunun köməkliyi, Ərəş mələkzadələri və Şəki əyanının ittifaqilə qəflətən Nuxu qalasına soxuldu. 22 il hökmranlıq sürməkdə olan Hüseyn xanı öldürüb, hökumət bayrağını qaldırdı. Hüseyn xan hünərli, şücaətli, gözəl tədbirli və düzgün fikirli olmaqla bərabər, təbiətən rəhimsiz bir adam idi” [2, s. 12].

Əbdülqadir xan (1779-1784) hakimiyyətdə az qalsa da, onun hakimiyyət dövrü Şəki ilə Qarabağ arasındakı münasibətlərə ciddi təsir göstərdi. Əbdülqadir xan sələfindən fərqli olaraq “Qubalı Fətəli xanla dostluq siyasəti yürüdürdü” [6, s. 29]. Hətta 1784-cü ildə Fətəli xan Qarabağ xanlığına qarşı müharibəyə başladığında “Hacı Əbdülqadir xan da Şəki qoşunu ilə onunla yoldaş” oldu [2, s.126]. Bu da öz növbəsində, Şəki xanlığı ilə Qarabağ xanlığı arasında münasibətlərin kəskinləşməsinə gətirib çıxardı. Vəziyyət o yerə gəlib çatdı ki, İbrahimxəlil xan Şəkidə hakimiyyət dəyişikliyinə gətirib çıxaran hadisənin birbaşa təşkilatçısı oldu: belə ki, Əbdülqadir xanın qətlə yetirdiyi Hüseyn xanın həbsdə olan oğlu Məhəmməd Həsən ağanı azad etdirən İbrahimxəlil xan onu “Cara göndərdi. Məhəmməd Həsən ağa Car ləzgilərinin köməkliyilə Şəkinin üzərinə yürüş etdi”. İkinci cəhddən sonra hakimiyyəti ələ keçirməyə müyəssər olan Məhəmməd Həsən ağa atasının əmisi Əbdülqadir xanı və oğullarını edam etdirdi və Şəki xanı oldu (1784-1795 və 1797-1805-ci illərdə). Bununla əlaqədar general A.Yermolov qraf Nesselrodeyə yazdığı məktubunda qeyd edirdi: “Bu xan, bir tərəfdən, zəkası və digər xanlıqlarla müqayisədə Şəki əyalətində tətbiq etdiyi daha yaxşı idarəçilik quruluşu ilə fərqlənir, digər tərəfdən isə, şöhrətpərəstliyi və ələlxüsus qeyri-insani qəddarlığı ilə seçilir.

Belə ki, öz qohumlarının böyük bir qismini və ona müxalif olan adamları qəddarlıqla məhv etmişdir. Şəkililərin və ləzgilərin arasında tərəfdarları çoxdur" [ 3, s. 13].

Məhəmməd Həsən xanın hakimiyyəti üçün başqa bir təhlükə qardaşları Fətəli ağa və Səlim ağa idi ki, birincisini kor etmişdi, kiçik qardaşı isə bu aqibəti yaşamamaq üçün Cara qaçmışdı. Bu zaman Azərbaycanda və bölgədə hərbi-siyasi vəziyyət çox mürəkkəbləşmişdi: xanlıqlar arasında aramsız müharibələr, xarici güclərin, xüsusilə Rusiya imperiyasının bölgədə möhkəmlənmək cəhdlərinin artması, türk Azərbaycan mənşəli Qacarların İranda güclənərək xanlıqların torpaqlarına da iddialarla çıxış etməsi Şəki xanlığının Qarabağ xanlığı ilə münasibətlərinə də təsir göstərmişdi. Aralarındakı ədavəti unudub xarici güclərə qarşı birləşmək yerinə Azərbaycan xanlıqlarının liderlik iddiaları davam etməkdəydi. O cümlədən Şəki xanı Məhəmməd Həsən xan rəqibi Qubalı Fətəli xanın vəfatından sonra (1789), 1790-cı ildə Şirvanda hərbi əməliyyatlara başlamaqla, xanlıqlar arasındakı bu mübarizəni yenidən alovlandırdı. Şəkili Məhəmməd Həsən xana qarşı Şamaxı, Qazıqumux, Qəbələ və Ərəş hakimlərindən ibarət ittifaqa Qarabağ xanı İbrahimxəlil xan da dəstək verdi. Şəki xanı çox çətinliklə müttəfiqlərin ordusuna qalib gələ bildi [14, c.153]. Azərbaycan xanları arasındakı bu bitmək bilməyən rəqabət və düşmənçilik isə ölkəni həm Qacar imperiyası, həm də Rusiya qarşısında gücsüz qoymuşdu.

1790-cı illərin ikinci yarısında, yəni Ağa Məhəmməd şah Qacarın Azərbaycana yürüşləri və Rusiya işğalı ərəfəsində Şəki - Qarabağ münasibətlərinə gəlincə, Şəkidəki siyasi qeyri-sabitlik bu münasibətlərə təsir göstərən başlıca amilllərdən biri olaraq qalırdı. Belə ki, Şirvanda hakimiyyətini möhkəmlətməyə çalışan Məhəmməd Həsən xan Qacar dövlətinin tərəfini saxlamaq qərarına gəlincə, bu, Şəki əhalisi arasında böyük narazılığa səbəb oldu. Kərim Ağa Fateh yazır ki, 1795-ci ildə "İran şahı Ağa Məhəmməd şah qoşun ilə Qarabağ vilayətinin üstünə gəlib, orada əyləşdi. Məhəmməd Həsən xan, şaha qulluq eləmək və ixlas göstərməkdən ötrü Hacı Seyid adlı bir böyük, külli ixtiyar nökəri vardı, bunu padşahın qulluğuna göndərdi" [3, s. 14]. Hətta Məhəmməd Həsən xan həmin ilin noyabrında Ağa Məhəmməd şah Qacarın Şamaxını tabe etmək üçün göndərdiyi Süleyman xanın ordusunu da müşayiət etmişdir [14, c. 172]. Bu vəziyyətdən istifadə edən Səlim ağa 1795-ci ilin dekabrında şəkililərin dəstəyilə hakimiyyətə gəldi və qardaşından fərqli olaraq Qacarların hakimiyyətini dəstəkləməmək qərarına gəldi .

1795-ci ilin sonlarında general V.Zubovun komandanlığı ilə rus ordusunun Cənubi Qafqaza yürüşünün başlaması, 1796-cı ilin mayında isə Dərbəndin alınması ilə bölgədə vəziyyət daha da mürəkkəbləşdi. A.A.Bakıxanov yazır ki, "qraf Zubov Kür çayı kənarında qışladı, oradan Gəncəyə bir dəstə qoşun göndərdi. Ora hakimi Cavad xan Ziyad xan oğlu tabe olmaq fikrilə qabağa çıxıb, qalanı təslim etdi. Qarabağlı İbrahim xan və Şəkili Səlim xan da, elçilər və məktublar göndərməklə ixlas və itaət göstərdilər" [2, s.135]. Səlim xan knyaz Sisianova yazdığı məktubunda da rus qoşunlarının komandanı general V.Zubova itaət göstərdiklərini yazmaqdadır [11, c.637].

1796-cı ilin noyabrında Rusiya taxtına I Pavelin (1796-1801) gəlməsi ilə rusların Xəzəryanı bölgələrdəki ekspansiyasına müvəqqəti olaraq ara verildi. Lakin bu Azərbaycandakı daxili siyasi vəziyyəti dəyişdirmədi: münasibətlər yenə də gərgin olaraq qalırdı. 1797-ci ildə Ağa Məhəmməd şah Qacar bölgədəki əlverişli vəziyyətdən istifadə edərək Azərbaycana təkrar yürüşə başladı. Bununla əlaqədar Mirzə Adıgözəl bəy yazır: "Ağa Məhəmməd şah, sərdarın qayıtması xəbərini eşidincə, yenə Qarabağ vilayətini almaq fikrinə düşdü. Bahar çağı yağış qətrələri və ağac yarpaqlarının sayından artıq qoşunla Azərbaycan tərəfinə bayraq qaldırdı ... Qızılbaş qoşunu Ağa Məhəmməd şahla bərabər Araz kənarına gəldi. Buna görə, Şuşa qalasında dayanıb, əldə olan qüvvə ilə qan-içən bir düşmənlə vuruşmaq mümkün deyildi. Uca mərtəbəli xan, əhli-əyal, övlad və nəvələrini, canlarından keçən bəylərin əhli-əyalını götürüb Car və Talaya hərəkət etdi. Mərhum İbrahim xanın

kürəkəni Nəsir xan, Şahsevən Əta xan, mərhum xanın kürəkəni şəkili Səlim xan və Qarabağın sair məşhur bəyləri də behiştlik İbrahim xanla bir yerdə səfər etdilər" [4, s. 66]. Məhəmməd Həsən ağa nə yolla olursa-olsun Şəkidəki hakimiyyətini bərpa etməyə çalışırdı. Ağa Məhəmməd şah Qacar öldürüldükdən sonra (1797) Məhəmməd Həsən ağa hətta əvvəllər düşməni olmuş Şamaxı xanı Mustafa xana yardım üçün müraciət etmiş, Mustafa xanın Şəkiyə yürüşü nəticəsində Səlim xan Qarbağ xanı İbrahimxəlil xanın yanına qaçmağa məcbur olmuşdu. Məhəmməd Həsən xan ikinci dəfə hakimiyyətə gəlmiş (1797-1805), Səlim xan isə hakimiyyətini yalnız 1805-ci ildə, həm də cəmi bir illiyinə bərpa edə bilmişdi [13, c. 1120].

Xanlıqlar arasındakı gərgin münasibətlər XIX əsrin başlanğıcında Azərbaycanı İran və Rusiya arasında mübarizə obyektinə çevirmiş,* 1804-cü ildə başlayan Rusiya – Qacar müharibəsi, eyni zamanda Şəki və Qarabağ xanlıqları üçün də böyük problemlər yaratmışdı. Hələ Kartli-Kaxeti çarlığının 1801-ci ildə Rusiyaya birləşdirilməsindən əvvəl, Şəki xanı Məhəmməd Həsən xan Rusiya təbəəliyinə keçmək arzusunu bildirmişdi. Belə ki, çar I Pavelin general-leytenant K.Knorrinqə göndərdiyi 12 avqust 1800-cü il tarixli reskriptində, həmçinin K.Knorrinqin özünün 15 dekabr 1800-cü il tarixli raportunda və general-mayor Lazarevin Məhəmməd Həsən xana 28 dekabr 1800-cü il tarixli məktubunda bu barədə məlumatlar verilməkdədir [10, c. 134; c. 630]. Lakin sənədlər də göstərir ki, istər Məhəmməd Həsən xan, istərsə Qarabağ xanının yanında olan keçmiş Şəki xanı Səlim ağa Rusiyaya və Qacar dövlətinə münasibətdə tərəddüdlü siyasət yürüdürdülər. Bu tərəddüdlər 1805-ci ildə Şəkidə hakimiyyətin dəyişməsi və Səlim ağanın yenidən Şəki xanı olmasından sonra bir qədər azaldı, amma Məhəmməd Həsən xanın Rusiyaya müxalif siyasəti tezliklə Səlim xanın da bənzər siyasəti ilə müşayiət edildi.

Rusiya, daha doğrusu, Qafqazdakı rus qoşunlarının komandanı P.Sisianov isə Şəki və Qarabağ xanlıqları arasındakı qohumluq əlaqələrinin onların mənafeyinə uyğun olduğu qənaətində olub hər iki xanlıq ilə sıx əlaqələr qurmaqda israrlı idi. Məhz bu məqsədlə də Sisianov Səlim xanın yenidən Şəkidə hakimiyyətini bərpa edilməsinə etiraz etməmişdi. 1805-ci il mayın 14-də Qarabağ xanlığı, mayın 21-də isə Şəki xanlığının Rusiyanın himayəsinə keçmək haqqında imzaladıqları Kürəkçay müqavilələri [ 11, c. 702-705] nə Şəki xanı Səlim xanın, nə də Qarabağ xanı İbrahimxəlil xanın verdikləri qərarla bağlı tərəddüdlərini azaltmamışdı. Bunu baron Budberqin qraf Qudoviçə yazdığı 23 iyun 1806-cı il tarixli məktubundan da görmək olar: "General-leytenant Qlazenapın raportundan məlum olur ki, Səlim xanın bu yeni təbəəlikdə tərəddüdləri vardır. Bəlkə də Qarabağlı İbrahim xan da eyni vəziyyətdədir" [12, c. 330]. Xüsusilə 1806-cı il Xankəndi faciəsində İbrahimxəlil xanın və arvadı Tububəyim xanımın övladları ilə birlikdə ruslar tərəfindən qətlə yetirilməsindən sonra [3, s. 15; 12, c. 331] Səlim xanın bu mövqeyi qətiləşdi.

Şəki və Qarabağ xanlıqları arasındakı münasibətlər İbrahimxəlil xanın vəfatından sonra da bir müddət (1806-cı ilin oktyabrında ruslara məğlub olan Səlim xanın hakimiyyətdən devrilməsi və Xoylu Cəfərqulu xanın Şəkiyə hakim təyin edilməsinə qədər) sıx olaraq davam etdi. Qarabağ xanı Mehdiqulu xanın məmuru Molla Məhəmməd ağa Vəlinin Səlim xana və onun arvadı, İbrahimxəlil xanın qızı Tutubəyim xanıma yazdığı məktubların məzmunu da bunu göstərir [12, c. 333]. Lakin 1806-cı ildə Şəki xanlığının ruslar tərəfindən işğalı və İbrahimxəlil xanın və ailəsinin qətlinə qarşı üsyanların qarşısını almaq üçün Qarabağ xanlığının ərazisində əlavə hərbi qüvvələrin yerləşdirilməsi, Mehdiqulu xanın isə fəaliyyətinin nəzarətdə saxlanması, Rusiya və Qacar dövləti arasında hərbi əməliyyatların qızışması, 1819-cu ildə Şəki xanlığının, 1822-ci ildə isə Qarabağ xanlığının ləğv edilməsi bu münasibətlərin də sonlanmasına gətirib çıxardı.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. 7 cilddə. IV cild (XIX əsr). Bakı, “Elm”, 2007. 504 s.+48 s. illüstrasiya.
2. Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı, “Minarə”, 2000 . 224 s.
3. Kərim Ağa Fateh. Şəki xanlarının müxtəsər tarixi. 2-ci təkrar nəşri. Bakı, Azərbaycan Ensiklopediyası NPB, 1993. 32 s.
4. Qarabağnamələr. I kitab. Bakı, “Şərq-Qərb”, 2006. 216 s.
5. Qarabağnamələr. II kitab. Bakı, “Şərq-Qərb”, 2006. 288 s.
6. Mahmud İ., Bağırova M. Şəki xanlığı. Bakı, “Azərnəşr”, 1997. 76 s.
7. Mustafazadə T.T. Qarabağ xanlığı. Bakı, “Sabah”, 2009. 333 s.
8. Şəki xanlığının tarixindən. Bakı 1958. 67 s.
9. Абасов Ф.М. Гарабагское ханство. Баку, «Тахсил», 2007. 192 с.
10. Акты, собранные Кафказской археографической комиссией (под ред. Берже А.П.], Тифлис, том I , 1866, 827 с.
11. Акты, собранные Кафказской археографической комиссией (под ред. Берже А.П.], Тифлис, том II , 1868, 1238 с.
12. Акты, собранные Кафказской археографической комиссией (под ред. Берже А.П.], Тифлис, том III , 1869, 767 с.
13. Акты, собранные Кафказской археографической комиссией (под ред. Берже А.П.], Тифлис, том V , 1873, 1187 с.
14. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку, Изд-во АН Азерб. ССР, 1948 – 190 с.

УДК 94 (479.24)

*Гюнай Халиг кызы Талыбова*
*Гянджинское отделение НАНА*

## ПОЛИТИЧЕСКИЕ ОТНОШЕНИЯ ШЕКИНСКОГО ХАНСТВА С КАРАБАХСКИМ ХАНСТВОМ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, Шекинское ханство, Карабахское ханство, Гаджи Чалаби-хан, Ибрагим Халил-хан

Политические отношения между Шекинским и Карабахским ханствами занимали важное место в системе межханских связей Азербайджана XVIII века. Наиболее тесные, но вместе с тем противоречивые и напряжённые контакты Шекинское ханство поддерживало именно с Карабахским ханством. С середины XVIII до начала XIX века существенное влияние на характер этих отношений оказывали внешнеполитические факторы. Взаимодействие России, Каджарского государства и грузинских царств с Шекинским и Карабахским ханствами выступало одним из ключевых военно-политических факторов, определявших как союзнические тенденции, так и конфронтационные процессы в регионе. Внешнее давление усиливало конкуренцию между ханствами и нередко способствовало обострению двусторонних отношений. Статья основана преимущественно на анализе исторических источников, отражающих реалии рассматриваемого периода, а также на трудах историков — современников описываемых событий. Комплексный подход к источниковой базе позволяет выявить

динамику политических контактов и определить их место в системе региональной политики Южного Кавказа.

UDC 94 (479.24)

*Gunay Khalig Talibova*
*Ganja Branch of ANAS*

POLITICAL RELATIONS OF THE SHEKI KHANATE WITH THE KARABAKH KHANATE
SUMMARY

*Keywords:* Azerbaijan, Sheki Khanate, Karabakh Khanate, Haji Chalabi Khan, Ibrahim Khalil Khan

Among the regional polities of eighteenth-century Azerbaijan, the Karabakh Khanate maintained the closest - yet simultaneously the most complex and tension-filled - relations with the Sheki Khanate. Their interaction was characterized by both cooperation and rivalry, reflecting the broader dynamics of inter-khanate politics in the South Caucasus. From the mid-eighteenth to the early nineteenth century, external geopolitical factors significantly influenced the nature of Sheki–Karabakh relations. The policies pursued by Russia, the Qajar state, and the Georgian monarchs toward the two khanates constituted major military-political factors shaping regional alignments. External interventions not only affected diplomatic orientations but also intensified competition and periodic confrontation between the two political entities. This article is primarily based on key historical sources reflecting the realities of the period, as well as on the works of historians who were contemporaries of the events described. Through a critical analysis of these materials, the study seeks to clarify the dynamics of political interaction between the Sheki and Karabakh khanates within the broader framework of regional power struggles.

***Daxil oldu: 25.02.2026-cı il***